# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## “Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verən icra hakimiyyəti orqanlarının siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 dekabr tarixli 90 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

“Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 754 nömrəli Fərmanının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 dekabr tarixli 90 nömrəli qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verən icra hakimiyyəti orqanlarının Siyahısı” üzrə:

1.1. 15-ci hissədə “Gömrük brokeri” sözlərindən sonra “gömrük daşıyıcısı” sözləri əlavə edilsin;

1.2. 16-cı hissədən “sərbəst anbarların” sözləri çıxarılsın.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri: Ə.Baxşıyev**

«04» dekabr 2012-ci il

№ 100